**Prezident İlham Əliyev:** Özəl telekanallar? Hesab edirəm ki, onlar səhv ediblər. Onlara da məsləhət görürəm, tövsiyə edirəm ki, əgər doğrudan da bu qadağa varsa, tamamilə götürülməlidir. Hesab edirəm ki, bütün televiziya kanalları sizin kimi istedadlı insanlar üçün açıq olmalıdır.

**Tahir İmanov:** Təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Mən şadam ki, bu məsələni sən qaldırmısan. Çünki görünür ki, burada hansısa anlaşılmazlıq olub. Yəni, dövlət xətti ilə sizə heç bir qadağa qoyula bilməz. Mən sizi artıq 20 ildən çoxdur ki, tanıyıram. Əvvəlki illərdə yaxşı təmaslarımız olubdur. Bu gün də sizin fəaliyyətinizi izləyirəm. Gördüyünüz işlərlə bağlı mənə müntəzəm olaraq məlumat verilir. Şadam ki, siz öz fəaliyyət dairənizi genişləndirirsiniz. Siz çox istedadlı insanlarsınız və Azərbaycan xalqı sizi çox sevir.

**Tahir İmanov:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Qaldı Süleyman Ələsgərovun adının əbədiləşdirilməsi ilə bağlı məsələyə, bu gün Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş verirəm ki, Süleyman Ələsgərovun adına küçə verilsin. Siz də şəhər icra hakimiyyətinin başçısı ilə əlaqə saxlayın, küçənin seçilməsində sizin ailəniz mütləq iştirak etməlidir.

**Tahir İmanov:** Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Mən Bəhramın təklifini də bəyənirəm. Hacı Zeynalabdin Tağıyev böyük insan, böyük xeyriyyəçi olub. Azərbaycan xalqı qarşısında çox böyük əməyi olan bir şəxsiyyətdir. Təqribən 20 il bundan əvvəl Pir Həsən ziyarətgahı mənim tapşırığımla abadlaşdırılmışdır. Hacı Zeynalabdin Tağıyevin xeyirxah fəaliyyəti bizim ailəmizdə də özünü göstərmişdir. O vaxt mənim babam Əziz Əliyev ona məktub yazaraq xahiş etmişdi ki, ona pul versin, getsin həkim peşəsinə yiyələnsin. Hacı Zeynalabdin, əlbəttə ki, onu tanımırdı, tanıya da bilməzdi. Tək o məktuba görə ona pul göndərdi. O pulla da Əziz Əliyev getdi Sankt-Peterburqda Hərbi-Tibbi Akademiyaya daxil oldu, həkim oldu, ondan sonra da onun həyatında yeni dövr başladı. Hacı Zeynalabdin Tağıyevin minlərlə, bəlkə də on minlərlə insana köməyi dəyib və mənim Prezident kimi addımlarımdan biri də o idi ki, onun evi əsaslı şəkildə təmir olunsun. Orada Tarix Muzeyi yerləşir. Amma mən o binaya məhz onun evi kimi baxırdım və biz bunu etdik. Onun şərəfinə abidənin ucaldılması düzgün qərardır. Bəhram, əgər sən də burada fəal iştirak etsən, çox yaxşı olar. Təkliflər hazırlayın. Ümumiyyətlə, mən sənin fəaliyyətini izləyirəm. Sən şəhərimizin inkişafı, tarixi mirasımızın qorunması ilə bağlı çox fədakar, çox böyük iş aparırsan. Mən izləyirəm, təqdir edirəm və sənə bu işdə yeni uğurlar arzulayıram.

Mən Tahir müəllimin həm baş rəssam vəzifəsinin təsis edilməsi, həm də Bakıda bienallenin keçirilməsi təkliflərini də dəstəkləyirəm. Mənə məlumat verildi ki, bu il bienalle keçiriləcək. Bu da çox gözəl bir təklifdir.

Xuraman xanımın da dəvətini məmnuniyyətlə qəbul edirəm. Demək olar ki, burada qaldırılan əsas məsələlərə mən öz münasibətimi bildirdim.

Əziz dostlar, bir daha demək istəyirəm ki, belə səmimi və açıq söhbət bir çox məsələlərin həlli üçün gözəl imkanlar yaradır. Mən təklif edirəm, belə görüşlər bu və ya digər formatda müntəzəm olaraq keçirilsin ki, bizim bu sahədə görəcəyimiz işlər daha düzgün aparılsın, daha sistemli xarakter alsın, bu gün bizim yaradıcı ictimaiyyətimizi narahat edən problemlərin hamısı həll olunsun. Sizə təşəkkür edirəm, yeni uğurlar arzulayıram və Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

* * *

**Xalq yazıçısı Anar:** Cənab Prezident, bağışlayın. Mən birinci danışdığım üçün bu cəsarəti üzərimə götürüb son sözü də demək istəyirəm, hamının adından Sizə təşəkkür edirəm. Bizi çox diqqətlə dinlədiniz, təklifləri qəbul edirsiniz və operativ cavab verirsiniz. Çox sağ olun. Sizə də, Mehriban xanıma da təşəkkür edirəm.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRTAC

*Prezident İlham ƏLİYEV:*

## Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, həm də daha böyük uğurlar qazanır

**Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, həm də daha böyük uğurlar qazanır. Bax, biz o dövlətlərdənik. Bizim mədəniyyətimiz qürur mənbəyimizdir. Biz mədəniyyətimizi qoruyuruq və çox şadam ki, çox gözəl gənc nəsil yetişir. Bizim gənc nəsil artıq həm müasir musiqini öyrənir, həm də öz milli köklərinə çox sadiqdir. Azərbaycanda keçirilən, həm yerli, həm də beynəlxalq iştirakçıların qatıldığı muğam festivalları, muğam müsabiqələri çox böyük maraq doğurur və bütün bölgələrdən olan gənclər, uşaqlar, yeniyetmələr çalışırlar ki, o müsabiqələrdə iştirak etsinlər, özlərini göstərsinlər. Bu çox əlamətdar hadisədir.**

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 78-ci kitabında yer alan bu fikirlər dövlətimizin başçısının 2017-ci il fevralın 2-də görkəmli dirijor maestro Niyazinin abidəsinin açılış mərasimindəki çıxışından götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2016-cı ilin dekabrından 2017-ci ilin mart ayınadək olan dövrü əhatə edir.




Kitaba Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfəri və Davosda keçirdiyi görüşlər barədə informasiyalar, Forumun "İpək yolunun səmərəsi" mövzusunda interaktiv iclasında çıxışının mətni, Almaniyaya işgüzar səfəri zamanı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Qiymətlərin sabitləşməsinə doğru: OPEC-in qayıdışı və neft geosiyasəti" mövzusunda "dəyirmi masa"da, "Avrasiyada əməkdaşlıq və problemlər" adlı panel müzakirədə çıxışlarının mətnləri daxil edilib. Panel müzakirədə dövlətimizin başçısı dünyanın diqqətini bir daha Qarabağ məsələsinə yönəldərək problemin ədalətli həllinə çağırış edib və bu məsələlərlə bağlı sualları cavablandırıb. Nəşrdə, həmçinin Azərbaycan Prezidentinin Belçika Krallığına, Qətər Dövlətinə və Pakistan İslam Respublikasına səfərlərinə dair materiallar, İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammitində çıxışının mətni yer alıb.

Çoxcildliyin 78-ci kitabında Prezident İlham Əliyevin ABŞ, Peru, Finlandiya, Estoniya, Fransa, İran, Pakistan və digər dövlətlərin, beynəlxalq təşkilatların ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallar da verilib.

Oxucular bu kitabda ölkə rəhbərinin Əl-Cəzirə televiziyasına geniş müsahibəsinin mətni ilə tanış ola bilərlər.

Nəşrdə dövlətimizin başçısının Naxçıvan Muxtar Respublikasına səfəri, Ordubad, Culfa və Şahbuz rayonlarında, habelə ölkəmizin paytaxtında sosial infrastruktur obyektlərinin açılışında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə, eləcə də Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun ailəsi ilə görüşünə dair informasiyalar toplanıb.

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin üçüncü toplantısında söylədiyi nitqlərin mətnləri də bu nəşrə daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 78-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

AZƏRTAC

## "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8, I kitab, maddə 581; 2002, N 12, maddə 709; 2004, N 7, maddə 505; 2007, N 10, maddə 938; 2008, N 5, maddə 343; 2013, N 5, maddə 483; 2017, N 2, maddə 143) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 22-ci maddəsinin birinci hissəsində "Azərbaycan Respublikasının Milli Kitabxanasına, Kitab Palatasına, Azərbaycan Mətbuat Şurasına, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının və qanunvericilikdə nəzərdə tutulmuş digər orqanların kitabxanalarına" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma (qəzet və jurnalların məcburi nüsxələrini), həmçinin "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində müəyyən edilmiş qaydada müvafiq kitabxanalara" sözləri ilə əvəz edilsin.

**2.** 25-ci maddə ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 fevral 2019-cu il.**

## "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1479-VQD nömrəli Qanununun tətbiqi və "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 avqust tarixli 384 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1479-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 avqust tarixli 384 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 607; 2008, N 9, maddə 798) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

*3.1.* aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"həmin Qanunun 22-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

*3.2.* altıncı abzas aşağıdakı redaksiyada verilsin:

"həmin Qanunun 22-ci maddəsinin birinci hissəsində "qurum" dedikdə Azərbaycan Mətbuat Şurası nəzərdə tutulur.";

*3.3.* ikinci-altıncı abzaslar, müvafiq olaraq, 2.1-2.5-ci bəndlər hesab edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2019-cu il.**

## Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Belarus Respublikasının Məhkəmə Ekspertizaları Dövlət Komitəsi arasında məhkəmə ekspertizası fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Belarus Respublikasının Məhkəmə Ekspertizaları Dövlət Komitəsi arasında məhkəmə ekspertizası fəaliyyəti sahəsində əməkdaşlıq haqqında 2018-ci il noyabrın 19-da Minsk şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Belarus Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2019-cu il.**

# Energetika naziri “Azərbaycan” İES-ə baş çəkib

**Energetika naziri Pərviz Şahbazov “Azərenerji” ASC-nin qoyuluş güclərinin optimallaşdırılması və bərpası” Proqramı çərçivəsində “Azərbaycan” istilik elektrik stansiyasında (İES) görülən işlərlə yerində tanış olmaq üçün Mingəçevirə gedib. Nazirin iştirakı ilə “Azərbaycan” İES-in fəaliyyətinə baxış keçirilib, müzakirələr aparılıb.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev “Azərbaycan” İES-də proqramda nəzərdə tutulan tədbirlərə uyğun olaraq görülən işlər barədə məlumat verib. Bildirib ki, 6 və 7 saylı enerji bloklarında turbin və qazanlarda əsaslı təmir işləri görülüb. Yenidənqurma çərçivəsində 6 və 7 saylı enerji blokları, 1 və 2 nömrəli əlaqə avtotransformatorlarının 550 kilovoltluq açıq paylayıcı qurğularında (APQ) olan istismar müddəti başa çatmış bütün avadanlıqlar yeniləri ilə əvəz edilib, müasir eleqaz açarları, ölçü transformatorları, yeni kabel kanalı və idarəetmə kabelləri quraşdırılıb. Bundan başqa, 330 kilovoltluq APQ-nin yenidənqurma işlərinə hazırlıq gedir və yeni idarəetmə mərkəzinin tikintisi davam etdirilir.



Xatırladaq ki, Energetika Nazirliyi tərəfindən Almaniyanın “Enerco/VPC” şirkətləri cəlb edilməklə və “Azərenerji”nin iştirakı ilə ötən ilin aprel-iyul aylarında elektrik stansiyalarında aparılmış araşdırmalar əsasında “Azərenerji” ASC-nin generasiya güclərinin optimallaşdırılması və bərpası” Proqramı hazırlanmış və icrasına başlanılıb.

**AZƏRTAC**

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Göyçayda vətəndaşları qəbul edib

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova martın 1-də Göyçayda vətəndaşların qəbulunu keçirib. Qəbulda Göyçay, Ağdaş, Kürdəmir, Ucar və Zərdab rayonlarından olan sakinlər iştirak ediblər.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə Heydər Əliyev Mərkəzində keçirilən qəbulda müraciətlər əsasən sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmalardan yaranan problemlər, imkansız ailələrin təminatı, övladlığa verilmə, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma və digər məsələlərə əlaqədar olub.

Komitə sədri Hicran Hüseynova hər bir müraciəti diqqətlə dinləyib, bir sıra müraciətlərin həlli ilə bağlı konkret tapşırıqlar verib. Bəzi müraciətlər araşdırılmaq üçün qeydiyyata alınıb.

Sonda Komitə sədri Hicran Hüseynova rayonun bir qrup fəal qadını ilə görüşüb.

**AZƏRTAC**

# Təhlükəsizlik orqanlarının yaradılmasının 100 illiyinə həsr olunan tədbir

Gəncənin Heydər Əliyev Mərkəzində baş tutan yubiley tədbirində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, DTX-nın Gəncə Şəhər İdarəsinin rəisi Əli Əliyev, “Alyans” Azərbaycan Respublikasının Xüsusi Xidmət Veteranları Birliyinin sədri Şamil Süleymanov iştirak ediblər.



Tədbirdə çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, hər bir ölkənin inkişafında təhlükəsizlik, sabitlik çox mühüm rol oynayır. O cümlədən, Azərbaycanda sabitliyin, təhlükəsizliyin təmin olunması, cinayətkarlığa qarşı mübarizənin düzgün və ciddi şəkildə aparılması Azərbaycanın inkişafına çox böyük töhfə verən amillərdir. Bu gün Dövlət Təhlükəsizlik Xidməti öz fəaliyyətində milli maraqlarımızın və təhlükəsizliyin etibarlı qorunması istiqamətində mühüm addımlar atır. Niyazi Bayramov 100 illik yubiley münasibətilə Dövlət Təhlükəsizlik Orqanlarının bütün şəxsi heyətini, veteranları, ulu öndərin şərəfli məktəbinin davamçılarını təbrik edib, onlara müqəddəs işlərində uğurlar arzulayıb.

DTX-nın Gəncə Şəhər İdarəsinin rəisi Əli Əliyev çıxışında bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı ilə daim təkmilləşən Dövlət Təhlükəsizlik Xidməti hazırda öz inkişafında yeni mərhələyə qədəm qoyub. Müstəqilliyini əzmlə möhkəmləndirən, demokratik prinsiplərə söykənərək sivil, hüquqi dövlət quruculuğu yolunda dönməzliyini sübuta yetirən Azərbaycan Respublikası bu gün öz dövlətçilik ənənələrini daha da inkişaf etdirərək etibarlı gələcəyi, əbədiyaşarlığı üçün sarsılmaz təməl yaradır.

Tədbirdə çıxış edən “Alyans” Azərbaycan Respublikasının Xüsusi Xidmət Veteranları Birliyinin sədri Şamil Süleymanov bildirib ki, Azərbaycanın təhlükəsizlik orqanlarının yaradılmasının 100 illiyi ilə bağlı silsilə tədbirlər ölkənin bir çox şəhər və rayonlarını əhatə edir. Bu tədbirlərin keçirilməsində əsas məqsəd bölgələrdə görüşlər təşkil etmək, ulu öndər Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı fəaliyyəti barədə gənc nəsli məlumatlandırmaqdır. O, ölkənin təhlükəsizlik orqanlarındakı fəaliyyətindən söz açıb, Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarının yaradılmasının 100 illik yubileyi münasibətilə “Alyans” Azərbaycan Respublikasının Xüsusi Xidmət Veteranları Birliyinin şəxşi nişanı və Fəxri fərmanı ilə təltif edilib.

Həmçinin, Dövlət Təhlükəsizlik Xidmətinin Gəncə Şəhər İdarəsinin bir qrup əməkdaşı Gəncə Şəhər İcra Hakimiyyətinin “Fəxri Fərman”ına layiq görülüb.

Tədbirdə ümummilli lider Heydər Əliyevin Dövlət Təhlükəsizlik orqanlarındakı fəaliyyətini əks etdirən qısametrajlı sənədli film nümayiş olunub.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

# Azərbaycan XİN Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktorunun səsləndirdiyi fikirlərə münasibət bildirib

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyanın səsləndirdiyi fikirlərlə bağlı açıqlama yayıb.**

AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir: “Ermənistanın yüksək səviyyəli məmurunun bu kimi fikir söyləməsi ATƏT-in Minsk qrupunun həmsədrlərinin rəhbərliyi altında aparılan danışıqların mahiyyəti və məntiqi, xüsusilə də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Parisdə keçirilmiş sonuncu görüşünün nəticələri ilə ziddiyyət təşkil edərək, uzun illərdir ki, aparılan danışıqlar prosesinə qarşı açıq hücum xarakteri daşıyır. Mahiyyət etibarilə bu, danışıqlar prosesini məhv etmək və həmsədrlərin fəaliyyətini heçə endirmək cəhdi deməkdir. Digər tərəfdən, bu bəyanat Ermənistanın Azərbaycanın torpaqlarının işğalında birbaşa iştirak etdiyinin növbəti aşkar göstəricisidir və Ermənistanın 1949-cu il Cenevrə konvensiyaları və əlavə protokollarına zidd olaraq həyata keçirdiyi qeyri-qanuni köçürmələr siyasəti də daxil olmaqla bu ərazilərin ilhaqı planlarına bəraət qazandırmaq cəhdidir.

Bununla əlaqədar olaraq işğalçı ölkəyə xatırlatmaq istərdik ki, bu kimi təxribat xarakterli çıxışların bütün mümkün mənfi nəticələrinə görə məsuliyyəti məhz Ermənistan respublikası daşıyır.

Azərbaycan, öz tərəfindən, bu məsələni BMT, ATƏT və digər aparıcı beynəlxalq təşkilatlar çərçivəsində qaldıracaq. Eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədrlərini Ermənistanın yüksək siyasi rəhbərliyinin nümayəndələrinin bu kimi addımlarını qəti şəkildə pisləyən bəyanatla çıxış etməyə çağırırıq”.

**AZƏRTAC**

# Silahlı Qüvvələrə Yardım Fonduna 98 milyon manatdan çox vəsait daxil olub

**Martın 1-dək Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 97 milyon 647 min 955,09 manat, 213 min 577,88 ABŞ dolları, 15 min 736 avro və 5 min rubl vəsait daxil olub.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

**AZƏRTAC**

# Pekində Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının iclası keçirilib

## *Çinin “BHG” marketlər şəbəkəsində Azərbaycan şərablarının satışına başlanılıb*

**İqtisadiyyat naziri, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə rəsmi şəxslərdən və iş adamlarından ibarət nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir. Nümayəndə heyətinə iqtisadiyyat, nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirləri, Xarici İşlər, Kənd Təsərrüfatı, Energetika nazirliklərinin, “Azərbaycan Dəmir Yolları” QSC-nin, Dövlət Gömrük Komitəsinin, SOCAR-ın, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) rəhbər şəxsləri və sahibkarlar daxildir. Komissiyanın həmsədri, Çinin Kommersiya Nazirliyinin Avrasiya departamentinin rəisi Lu Veydonun rəhbərlik etdiyi Çin nümayəndə heyətində isə bu ölkənin aidiyyəti dövlət qurumlarının rəhbərləri və iş adamları təmsil olunur.**



AZƏRTAC xəbər verir ki, səfərin ilk günü Azərbaycan nümayəndə heyəti Çinin “Huaei” və “Çin Milli Elektrik Mühəndisliyi Ko. Ltd” (CNEEC) şirkətlərinin rəhbərləri ilə görüşlər keçirib, müzakirələr aparıb.

“Huawei” şirkətinin rəhbəri ilə görüşdə İKT sahəsində əməkdaşlığın inkişafı imkanları müzakirə edilib. Bildirilib ki, İKT-nin inkişafı Azərbaycan iqtisadiyyatının prioritet istiqamətlərindəndir. Bu baxımdan Azərbaycan dünyada aparıcı şirkətlərdən olan “Huaei” ilə əlaqələrin genişləndirilməsində maraqlıdır. Görüşdə “Huaei” şirkətinin istehsalı olan və müxtəlif sahələri əhatə edən yeni texnoloji həllərin təqdimatı keçirilib.

İqtisadiyyat naziri Şahin Mustafayevin “Çin Milli Elektrik Mühəndisliyi Ko. Ltd” şirkətinin prezidenti Zanq Yanfey ilə görüşündə şirkətin ölkəmizdə fəaliyyətinə və əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb. Azərbaycanda sənaye, tikinti, ticarət, xidmət və digər sahələrdə Çin sərmayəli şirkətlərin fəaliyyət göstərdiyini qeyd edən nazir CNEEC-in Azərbaycanda müxtəlif layihələrin icrasında iştirak etdiyini vurğulayıb.

CNEEC-in prezidenti Z.Yanfey şirkətin Azərbaycanla əməkdaşlıqda marağını ifadə edib. Görüşdə Azərbaycanda avtomobil şinlərinin istehsalının təşkili müzakirə olunub.

Səfər çərçivəsində Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclası keçirilib, Komissiyanın sonuncu iclasından keçən dövr ərzində görülən işlər və iqtisadi əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.

İclasda iqtisadiyyat naziri, Komissiyanın həmsədri Ş.Mustafayev Azərbaycan-Çin münasibətlərinin qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslandığını vurğulayıb. Bildirib ki, əməkdaşlığımızın qədim tarixi var, hələ 2500 il bundan əvvəl xalqlarımız Qədim İpək Yolu vasitəsilə sıx ticari və humanitar əlaqələrə malik olub.

Nazir qeyd edib ki, Azərbaycan və Çinin dövlət başçılarının siyasi iradəsi, aparılan intensiv dialoq ölkələrimiz arasında əlaqələrin inkişafı üçün əlverişli zəmin yaradır. Prezident İlham Əliyevin Çin Xalq Respublikasına 2015-ci ildəki dövlət səfəri münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcı olub. Səfər zamanı aparılan danışıqlar, əldə olunan mühüm razılaşmalar, imzalanmış dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamə, “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumu ölkələrimiz arasında əlaqələrin genişlənməsində xüsusi əhəmiyyət kəsb edir.

Bildirilib ki, 2018-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 1,3 milyard dollar təşkil edib. Çinin Cənubi Qafqaz ölkələri ilə ticarətinin təqribən 43 faizi Azərbaycanın payına düşür. Bununla belə, ticarət dövriyyəsinin artırılması üçün potensial böyükdür. Azərbaycanda 120-dək Çin kapitallı şirkət fəaliyyət göstərir. Çin şirkətləri Azərbaycana 800 milyon dollardan çox investisiya yatırıb.

Ölkəmizdə biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması üçün həyata keçirilən sistemli və ardıcıl tədbirlər barədə məlumat verən Ş.Mustafayev Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycanın öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasına daxil edildiyini diqqətə çatdırıb. Nazir Çin şirkətlərini Azərbaycanda yaradılan əlverişli biznes və investisiya mühitindən yararlanmağa, sənaye parklarında və məhəllələrində birgə müəssisələrin təşkilinə dəvət edib.

Komissiyanın iclasında iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən nəqliyyat-tranzit əlaqələrinin genişləndirilməsi müzakirə olunub. Bildirilib ki, Azərbaycan Çinin “Bir Kəmər və Bir Yol” strategiyasını dəstəkləyən ilk ölkələrdən olmaqla yanaşı, bu təşəbbüsün reallaşdırılmasında yaxından iştirak edir. Çinin “Bir Kəmər və Bir Yol” təşəbbüsü çərçivəsində Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin potensialından istifadə olunması iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit sahəsində əməkdaşlıq üçün geniş imkanlar açır.

Ş.Mustafayev Transxəzər Nəqliyyat Dəhlizinin üstünlükləri, Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında Azərbaycanın nəqliyyat-logistika potensialından istifadənin səmərəliliyini diqqətə çatdırıb, Çində bu dəhlizin təşviqinin genişləndirilməsinin önəmini, ölkələrimiz arasında əməkdaşlığa töhfə verəcəyini qeyd edib.

Komissiyanın həmsədri, Çinin Kommersiya Nazirliyinin Avrasiya departamentinin rəisi L.Veydon ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib, əlaqələrin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb. O, Azərbaycanın Cənubi Qafqazda Çinin əsas ticarət tərəfdaşı olduğunu, Azərbaycan-Çin iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsində və yeni əməkdaşlıq imkanlarının təşviq olunmasında komissiyanın rolunu vurğulayıb.

İclasın sonunda Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi Komissiyanın həmsədrləri Şahin Mustafayev və Lu Veydon imzalayıb. İclas çərçivəsində müzakirə olunmuş məsələlərin və Komissiyanın gələcək fəaliyyət istiqamətlərinin əksini tapdığı sənəddə sənaye, kənd təsərrüfatı, tranzit-logistika, ticarət, investisiya, İKT, maliyyə, turizm, humanitar və sair sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Çinə səfər çərçivəsində iqtisadiyyat naziri Ş.Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti bir sıra görüşlər keçirib. Çinin kommersiya naziri Conq Şan ilə görüşündə Ş.Mustafayev Azərbaycanın Çin ilə ikitərəfli əlaqələrə xüsusi əhəmiyyət verdiyini və bu əlaqələrin bütün sahələrdə genişlənməsində maraqlı olduğunu diqqətə çatdırıb. Bildirib ki, iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin inkişafı üçün böyük potensial mövcuddur.

Nazir Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının bu imkanları reallaşdırmaq üçün əlverişli platforma olduğunu vurğulayaraq, keçirilən 7-ci iclasın səmərəli olacağına və əldə ediləcək yeni razılaşmaların icrasının Azərbaycan-Çin əlaqələrinin inkişafına töhfə verəcəyini deyib. Bildirilib ki, Azərbaycan Çinlə ikitərəfli ticarət əlaqələrinin inkişafı istiqamətində bir çox tədbirlər görüb. Azərbaycanın Çində ticarət nümayəndəsi, Urumçidə və Şanxayda Azərbaycan şərab evləri, Lucouda Azərbaycan Ticarət Evi fəaliyyət göstərir, Çinə ixrac missiyaları təşkil edilir. Bu il Çinə daha 3 ixrac missiyasının təşkili nəzərdə tutulur. Bundan başqa, Çinin paytaxtında və müxtəlif regionlarında keçirilən sərgilərdə Azərbaycan şirkətlərinin məhsulları və xidmətləri nümayiş etdirilir, böyük maraqla qarşılanır. Çin ilə ikitərəfli ticarətin genişləndirilməsi üçün Birinci Çin Beynəlxalq İdxal Sərgisi platformasından da səmərəli istifadə olunub, 180 çeşiddən çox Azərbaycan məhsulu təqdim edilib. Nümayiş etdirilən məhsullarımıza çinli ziyarətçilər tərəfindən böyük maraq göstərilib.

Qeyd olunub ki, Azərbaycan Çinlə kənd təsərrüfatı sahəsində də əməkdaşlıqda maraqlıdır. Çəltikçilik, çayçılıq, pambıqçılıq, ipəkçilik, tütünçülük sahələrində əlaqələrin inkişafı üçün imkanlar genişdir. Çin şirkətləri artıq pambıqçılığın və ipəkçiliyin maddi-texniki bazasının inkişafında Azərbaycanla uğurlu əməkdaşlıq edir. Azərbaycan Çinə yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarını, o cümlədən pambıq, tütün, şərab, alüminium və kimya sənayesi məhsulları ixrac edə bilər. Ölkəmiz isə Çindən yüksək keyfiyyətli məhsulların idxalını dəstəkləyir. Bununla yanaşı, Azərbaycan Çinin regionları ilə əlaqələrin genişləndirilməsində, qarşılıqlı səfərlərin və tədbirlərin təşkilində də maraqlıdır.

Görüşdə Kommersiya Nazirliyinin tərkibində olan Çin İnvestisiyanın Təşviqi Agentliyi və Çin Avropa Texniki-İqtisadi Əməkdaşlıq Assosiasiyası tərəfindən Azərbaycan məhsullarının Çində daha geniş təşviqi və satışının təşkilinin genişləndirilməsii, infrastruktur, qida təhlükəsizliyi sahələrində əməkdaşlığın genişləndirilməsi və sair məsələlər müzakirə edilib.

Azərbaycan nümayəndə heyətinin Çinə səfəri çərçivəsində “Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi arasında 2019-2023-cü illər üçün mədəni əməkdaşlıq haqqında” Protokol, “Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi arasında çinli turistlərin Azərbaycan Respublikasına qrup səfərlərinin sadələşdirilməsi haqqında” Anlaşma Memorandumu imzalanıb.

Qeyd edək ki, fevralın 25-dən martın 1-dək İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə bu ilin ilk ixrac missiyası Çinin paytaxtı Pekinə təşkil olunub. Missiyaya qida, şərab və digər spirtli içki istehsalı sahəsində fəaliyyət göstərən 16 Azərbaycan şirkəti daxil edilib. İxrac missiyası çərçivəsində Çin və Azərbaycan şirkətlərinin iştirakı ilə dəyirmi masa keçirilib, Azərbaycan məhsulları barədə məlumat verilib, ixracın artırılması istiqamətində fikir mübadiləsi aparılıb.

Bu gündən etibarən Çinin “BHG” marketlər şəbəkəsində Azərbaycan şərablarının satışına başlanılıb.

**AZƏRTAC**

# Xocalı soyqırımı həqiqətləri Ukrayna mediasında geniş işıqlandırılıb

Ukraynanın Poltava şəhərinin “İRT” və “MİSTO +” televiziya kanalları Heydər Əliyev Fondu tərəfindən çəkilmiş “Xocalıya ədalət!” filmini nümayiş etdiriblər (https://www.youtube.com-/watch?v=AvG6Jz_pWp8&feature=youtu.be&fbclid=IwAR3LClIkylBVZhajZBo_h0mP9WJnx_roMZ1kZSg1My6pG0weHqsxhmyQSO4). Ölkəmizin Poltavadakı fəxri konsulluğunun təşəbbüsü ilə yayımlanan filmdə erməni silahlı birləşmələrinin son iki əsrdə Azərbaycanda həyata keçirdikləri işğalçılıq və soyqrım siyasəti, xüsusən də 27 il bundan öncə Xocalı şəhərində qadınlara, uşaqlara, yaşlı insanlara və dinc əhaliyə qarşı törətdikləri dəhşətli qətliamlar tarixi faktlarla Ukrayna ictimaiyyətinə təqdim olunub. Ukaynanın “Pravdatut”(https://pravdatut.ua/news/hodzhalynskyj-genotsyd-pro-uroky-istoriyi-cherez-27-rokiv?fbclid-=IwAR0cVtiGwr1gAQhunMev7QGqdde0v3dSDTvlABcjTEhrfffiUNevt2dpXfk) və “FAKT” (https://fact.org.ua/category/actual-events/hodzhalinskiy-genocid-ob-urokah-istorii-spustya-27-let?fbclid=IwAR0Jx3nG0bGDbNm01tClxBWrtT0-LsmQ_C0xbC_PV_avYx3GXBHgAaEr-Gk) informasiya portalları isə fevralın 26-da və 27-də Azərbaycanın Poltavadakı fəxri konsulu Elşən Vəliyevin Xocalı soyqırımı ilə bağlı yazdığı məqalələri yayımlayıb. Müəllif hər iki məqalədə ermənilərin xarici havadarlarının dəstəyinə arxalanaraq Azərbaycan torpaqlarının 20 faizini işğal etdiyini, işğal nəticəsində bir milyondan çox insanın öz doğma yurdlarından didərgin salındığını bildirib.1992-ci il fevral ayının 26-da erməni silahlı birləşmələrinin Xocalı şəhərini sakinləri qarışıq yerlə yeksan etmələrini insanlığa qarşı törədilmiş bəşəri cinayət adlandırıb. “Dünya birliyinin və nüfuzlu beynəlxalq təşkilatların indiyədək Xocalı soyqırımına hüquqi siyasi qiymət verməmələri , belə bir bəşəri cinayətdə əli olan ermənistanın keçmiş prezidentləri Robert Köçəryan və Serj Sarkisyanın beynəlxalq tribunal qarşısında cəzalandırılmaması tarixi ədalətsizlikdir. Əminəm ki, hərbi, iqtisadi qüdrətinə görə bölgənin lider dövlətinə çevrilən müstəqil Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, Xocalı soyqrımını törədənlərin qanun qarşısında cəzalandırılmasına nail olacaq” - deyə fəxri konsul məqaləsində bildirib. Ukraynanın Pravdatut televiziya kanalı isə fevralın 25-dən 28-dək hər axşam Heydər Əliyev Fondu tərəfindən hazırlanmış Xocalı filmini nümayiş etdirdi. Ölkəmizin Poltavadakı fəxri konsulu Elşən Vəliyev bildirib ki, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün, yaşadığımız və fəaliyyət göstərdiyimiz ölkələrin televiziya və kütləvi informasiya vasitələrinin imkanlarından maksimum yararlanmalıyıq. Bu baxımdan möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi “Biz ermənilərlə informasiya savaşında müdafiədən hücuma keçməliyik” fikrini əldə əsas tutub informasiya vasitələri ilə əməkdaşlığımızı daha da möhkəmləndirməliyik.




**Qədir ASLAN,**
**“Respublika”.**

# Bakıda Novruz yarmarkaları fəaliyyətə başlayır



**Xalqımızın ən əziz bayramlarından olan Novruz bayramının yaxınlaşması ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin tapşırığına əsasən paytaxtın bütün rayonlarında hazırlıq işlərinə başlanılmışdır.**

İşlər çərçivəsində şəhərin meydan və parklarının, istirahət bağlarının abadlaşdırılması, burada yeni yaşıllıqların salınması, gül və kolların əkilməsi həyata keçirilir. Eyni zamanda, küçə və prospektlərdə, parklarda, ictimai-iaşə obyektlərində, bir sıra binaların fasadında tərtibat işləri aparılmasına başlanıb, Novruz atributlarının şəkilləri, müxtəlif maketlər, dekorativ bəzək elementləri quraşdırılır.

Bayramla əlaqədar mart ayının 2-dən etibarən paytaxtın bütün rayonlarında Novruz yarmarkaları fəaliyyə başlayacaqdır. Bu yarmarkalarda respublikamızın müxtəlif bölgələrindən gəlmiş fermerlər şəhər sakinlərinə müxtəlif kənd təsərrüfatı mallarını bazar qiymətlərindən xeylu ucuz təklif edəcəklər. Bu fermerlər üçün yarmarkalarda müvafiq şərait yaradılmışdır. Məhsulların keyfiyyəti və qiymətlərinə müvafiq qururmlar tərəfindən nəzarət ediləcəkdir.

Həmçinin, Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Departamenti tərəfindən paytaxt sakinlərinin rahatlığı üçün 12 yerdə, ilk növbədə metro stansiyalarının yaxınlıqlarında 23-dən çox Novruz çadırları quraşdırılmış və burada da bayram ərzaqlarının, müxtəlif hədiyyələrin satışı təşkil olunmuşdur.

Yarmarkalar martın 25-nə kimi davam edəcəkdir.

**Bakı şəhərinin rayonlarında Novruz bayramı münasibəti ilə təşkil edilən bayram yarmarkalarının ünvanları barədə**

**MƏLUMAT**

| № | Rayonlar | Yarmarkaların ünvanları | Qeyd |
|---|---|---|---|
| 1. | Binəqədi | 7-ci mikrorayon, A.Kunanbayev küçəsi ilə S.S.Axundov küçəsinin kəsişməsi | |
| 2. | Qaradağ | Lökbatan qəsəbəsi, 28 May küçəsi | |
| 3. | Xətai | Məzahir Rüstəmov küçəsi 10,12, 21, 23 saylı yaşayış binaların əhatə dairəsi - (Məzahir Rüstəmov küçəsinin Sarayevo və S.Ə.Şirvani küçələri ilə kəsişməsi) | |
| 4. | Xəzər | Mərdəkan qəsəbəsi, S.Yesenin küçəsi - 106 (köhnə avtovağzal ərazisi) | |
| 5. | Pirallahı | Pirallahı qəsəbəsi, K.Rzayev küçəsi 14 nömrəli evin qarşısındakı qeyri-yaşayış obyekti | |
| 6. | Nərimanov | "Gənclik" metrosunun çıxışı, Fətali xan Xoyski prospekti 79 saylı binanın qarşısı | |
| 7. | Nəsimi | Mərdanov qardaşları küçəsi 59 | |
| 8. | Nizami | Şirin Mirzəyev küçəsi ilə Qara Qarayev küçəsinin kəsişməsi ("Praqa" şadlıq evi ilə üzbəüz) | |
| 9. | Sabunçu | Bakıxanov qəsəbəsi, Eldar Xəlilov küçəsi ilə Muxtar Fətəliyev küçəsinin kəsişməsi, bina 72-nin qarşısı | |
| 10. | Səbail | Nizami küçəsi (Land Mark-ın yaxınlığında) | |
| 11. | Suraxanı | Yeni Günəşli qəsəbəsi, «V» yaşayış massivi, "Günəş" ticarət mərkəzi | |
| 12. | Yasamal | H.Cavid prospekti (H.Cavid parkının ərazisində) | |

**Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidməti.**

*DTX:*

## Fəxrəddin Abbasovun Azərbaycan əleyhinə çağırışları və digər əməlləri ilə bağlı istintaq araşdırmaları davam etdirilir

**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) istintaqı aparılan cinayət işi üzrə Azərbaycan Respublikasının vətəndaşı Abbasov Fəxrəddin Fərman oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.1-ci (Milli, irqi nifrət və düşmənçiliyin salınması, milli ləyaqətin alçaldılması) maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli bilinib.**

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, F.Abbasovun bu əməllərə görə təqsirləndirilən şəxs kimi məsuliyyətə cəlb olunmasına dair qərar qəbul edilib.

Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2018-ci il 14 iyul tarixli qərarı ilə Abbasov Fəxrəddin Fərman oğlunun barəsində həbs qətimkan tədbiri seçilib.

Abbasov Fəxrəddin Fərman oğlu Rusiya Federasiyasında müvəqqəti yaşamaq hüququ müddətinin bitməsi ilə əlaqədar Moskva vilayəti Lyuberetsk şəhər məhkəməsinin deportasiya haqqında qərarı icra olunarkən 2019-cu il fevralın 28-də Bakıdakı Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb və istintaqa cəlb edilib.

Hazırda Azərbaycan Respublikasının vətəndaşı Abbasov Fəxrəddin Fərman oğlunun Ermənistan Respublikasına səfərləri, özünün də bildirməsinə görə Ermənistan xüsusi xidmət orqanının əməkdaşı ilə apardığı görüş və əlaqələrinin mahiyyəti, Ermənistan Respublikasında keçirilən və kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə yayımlanan tədbirlərə canlı yayımda qoşularaq Azərbaycan Respublikası və onun ərazi bütövlüyü əleyhinə etdiyi çağırışlar və digər əlaqəli məsələlərlə bağlı istintaq araşdırmaları davam etdirilir.

**AZƏRTAC**

## BİLDİRİŞ

"ASK Ayaqqabı Fabriki" MMC 21 fevral 2019-cu il tarixdə kotirovka sorğusu üsulu ilə ayaqqabı istehsalında istifadə olunan avadanlıqların ehtiyat hissələrinin satınalınması ilə əlaqədar satınalma müsabiqənin qalibi "HERMEZ ZF" MMC olmuşdur və 46657.82 AZN məbləğində müqavilə bağlanmışdır.

## BİLDİRİŞ

"ASK Ayaqqabı Fabriki" MMC 18 fevral 2019-cu il tarixdə kotirovka sorğusu üsulu ilə Qofro qutu və yeşiklərin satınalınması ilə əlaqədar satınalma müsabiqənin qalibi "Azərbaycan kağız və karton kombinati" MMC olmuşdur və 30580.00 AZN məbləğində müqavilə bağlanmışdır.

## BİLDİRİŞ

"ASK Ayaqqabı Fabriki" MMC 18 fevral 2019-cu il tarixdə kotirovka sorğusu üsulu ilə dəftərxana və təsərrüfat mallarının satınalınması ilə əlaqədar satınalma müsabiqənin qalibi "HERMEZ ZF" MMC olmuşdur və 16655.32 AZN məbləğində müqavilə bağlanmışdır.

# Minnətdarlıq

Bu günlərdə səhhətimdə müəyyən problemlər yaranmışdı. Ə.D.Məlikov adına 6 nömrəli Birləşmiş Şəhər Xəstəxanasına müraciət etdim. Qeyd edim ki, səhiyyə ocağına tibb elmləri namizədi Bəyalı Məmmədov rəhbərlik edir. Baş həkimin müalicə işləri üzrə müavini, ixtisasca həkim-cərrah, 25 ildən çox ömrünü-gününü həkimlik sənətinə həsr etmiş İsrail Qasımovun xidmətləri da danılmazdır. Xəstəxanada terapiya, nevrologiya, cərrahiyyə, doğum-ginekologiya, uşaq travmatologiya, anesteziologiya və reanimasiya şöbələri fəaliyyət göstərir.

550-dən çox işçi heyəti ilə sağlamlığın keşiyində dayanan kollektiv hər an üzərlərinə düşən vəzifə borclarını şərəflə yerinə yetirirlər. Burada müalicə olunduğum müddət ərzində mənə xüsusi diqqət və qayğı göstərdiklərinə görə, terapiya şöbəsinin müdiri, "Tərəqqi" medallı Sevil Eyvazovaya və şöbənin həkimlərinə minnətdarlığımı bildirirəm. Həkim Leyla Həsənova, Tahirə Nəbili, baş tibb bacıları Firuzə Hacıyeva, Billurə Hüseynova, Sevda Hüseynova və Ulduzə Məmmədova öz işlərinə şərəflə yanaşırlar. Xəstəxananın kollektivinə uğurlar diləyirəm.

**Əbülfət SƏDİ oğlu.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi Açıq Tenderə dəvət edir

Tender 1 (bir lot üzrə keçirilir:

